**Sosial şəbəkələrdə satılan “arıqlama” məhsulları ilə bağlı aparılan monitorinq**

**(7 iyul 2026)**

Arıqlama məqsədilə sosial şəbəkələrdə reklam olunaraq satılan çay, qəhvə və kapsul formasında bioloji aktiv qida məhsulları ilə bağlı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən aparılan monitorinqlər zamanı ciddi qanun pozuntuları müəyyən edilib.

Monitorinqlər çərçivəsində **"Slimluxcoffee_ariqladici_kofe", "Vellara.baku"** və **"Spirulina_azerbaijan_official" "Instagram"** sosial şəbəkə hesablarından əldə edilən məhsul nümunələri laborator müayinələrə cəlb olunub. Nəticələrə əsasən, "SLT Slim Lux Coffee Premium" (fındıqlı), "SLT Slim Lux Coffee Premium", "Good Lux Green Coffee", "Green Good Lux Slimming Coffee" (fındıqlı), "Green Good Lux Slimming Capsules", "Saffren Dietary Supplement", "Spirulina" "Vellara Form Coffee" və "Vellara Form Tea" məhsullarında qida məhsullarında istifadəsinə yol verilməyən insan sağlamlığı üçün təhlükəli **sibutramin** maddəsi aşkarlanıb.

Araşdırmalar zamanı müəyyən edilib ki, sözügedən məhsullar ölkəyə şəxsi istifadə məqsədilə gətirilsə də, sonradan sosial şəbəkələr üzərindən qanunsuz satışa çıxarılıb. Bu məhsulların ölkəmizə idxalına qadağa qoyulması ilə bağlı istehsalçı ölkənin səlahiyyətli qurumlarına da rəsmi müraciət ünvanlanıb.

Faktlarla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülməsi üçün aidiyyəti qurumlara, o cümlədən hüquq-mühafizə orqanlarına məktublar göndərilib.

**Sibutramin** maddəsi aşkarlanan məhsulların siyahısı:

| № | Məhsulun adı | İstehsal tarixi / Son istifadə müddəti | Partiya nömrəsi | İstehsalçı |
|---|---|---|---|---|
| **1** | SLT Slim Lux Hazelnut Coffee Premium | 10.2024 - 08.2027 | 102024 | “Ella Kozmetik” LTD ŞTİ |
| **2** | SLT Slim Lux Coffee Premium | 04.2025 - 09.2028 | 012024 | Ella Kozmetik LTD ŞTİ |
| **3** | Good Lux Green Coffee | 04.2026 - 04.2029 | 042026 | Ella Kozmetik LTD ŞTİ |
| **4** | Green Good Lux Hazelnut Coffee | 03.2025 - 03.2028 | 032025 | Ella Kozmetik LTD ŞTİ |
| **5** | SLT Slim Lux Coffee Premium | 01.2026 - 01.2029 | 012026 | Ella Kozmetik LTD ŞTİ |
| **6** | Green Good Lux Slimming Capsules | 01.09.2025 - 01.10.2028 | 4663010124 | Ella Kozmetik LTD ŞTİ |
| **7** | Vellara Form Coffee | 10.2025 - 10.2028 | 102025-01 | Yaser İlaç İthalat İhracat Sanayi Ticaret Limited Şirketi |
| **8** | Vellara Form Tea | 10.2025 - 10.2028 | 102025-01 | Yaser İlaç İthalat İhracat Sanayi Ticaret Limited Şirketi |
| **9** | Spirulina | 10.01.2025 - 09.01.2028 | - | - |
| **10** | Saffren Dietary Supplement | 02.2025 - 02.2028 | - | - |